| | "İODICO" MMC-nin SİYASƏTLƏRİ | Sənəd kodu | "İODİCO"/İMS/SİYASƏT/03 |
|---|---|---|---|
| | | Təftiş tarixi | 03.09.2024 |
| | | Təftiş № | 01 |

"Təsdiq edirəm"
"İODİCO" MMC-nin baş direktoru
__________ R.C.Xəlilov
«03» 09 __________ 2024-cü il

# ƏTRAF MÜHİT SİYASƏTİ

Ətraf mühit siyasətinin əsas istiqamətləri məhsulların istehsalının və istifadəsinin Azərbaycan Respublikasının qanunvericiliyinə, habelə beynəlxalq standartlara ekoloji tələblərə, qaydalara uyğun olmasıdır.

Ətraf mühit siyasətinin əsas istiqamətlərinin həyata keçirilməsi aşağıdakı prinsiplər əsasında aparılır:

- ✓ Hər bir əməliyyatda fəaliyyət göstərən ətraf mühitin idarə edilməsi sistemini saxlamaqla, fəaliyyət boyunca əhəmiyyətli ekoloji aspek və təsirlərin nəzərə alınması;
- ✓ Buruq suyun çıxarılmasından istehlakçıya təhvil verilənədək bütün normativ sənədlərin tələblərinə ciddi əməl etməklə məhsulun keyfiyyətinin və dayanıqlığının təmin edilməsi;
- ✓ İstehsalın texnoloji proseslərinin mərhələlərinə avtomatlaşdırılmış nəzarətin təkmilləşdirilməsi;
- ✓ Şirkətin fəaliyyətində ətraf mühitin mühafizəsi sahəsində qanunvericiliyin norma və qaydalarına, normativ tələblərə əməl olunması;
- ✓ Mütəmadi olaraq ətraf mühitin mühafizəsi üzrə təlim və digər inkişaf yolları ilə heyətin fəaliyyətinin davamlı təkmilləşdirilməsi;
- ✓ İstehsalın sənaye və ekoloji təhlükəsizliyinə cavabdeh olan kadrların təkmilləşdirilməsi;
- ✓ Ekoloji vəziyyətin yaxşılaşdırılması ilə bağlı maraqlı tərəflərlə görüşlərin keçirilməsi;
- ✓ Ətraf mühitə təsir edən bütün zərərli amillərin monitorinqinin aparılması, müəyyən edilməsi və minimuma endirilməsi. Şirkətin fəaliyyətinin ətrafında, eləcə də ona bitişik ərazilərdə ətraf mühitin çirklənməsinin qarşısının alınması;
- ✓ İstehsalın ətraf mühitə mənfi təsirini minimuma endirmək üçün şərait və mexanizmlərin yaradılması;
- ✓ Sistem təhlili, qiymətləndirmə, monitorinq və daxili audit vasitəsilə ISO 9001, ISO 14001, ISO 45001 standart sistemlərinin inteqrasiyasının davamlı təkmilləşdirilməsi;
- ✓ Fəaliyyəti ekoloji qanunvericiliyə uyğun gələn ixtisaslı, səriştəli, təcrübəli və etibarlı təchizatçılarla qarşılıqlı faydalı əlaqələrin saxlanılması;
- ✓ Ətraf mühit idarəetmə sisteminin daha da təkmilləşdirilməsinə yönəlmiş operativ düzəldici və qabaqlayıcı tədbirlərin görülməsi;
- ✓ İstehsalat və ekoloji risklərin qiymətləndirilməsi, onların azaldılması üçün tədbirlərin işlənib hazırlanması və həyata keçirilməsi;

Şirkətin icraçı rəhbərliyi bu siyasətin həyata keçirilməsinə cavabdehdir.
İnkişaf prioritetləri və müəssisənin iş şəraiti dəyişdikdə ətraf mühit siyasəti yenidən nəzərdən keçirilməli, düzəlişlər edilməli və təkmilləşdirilməlidir.